**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# MÜNAQİŞƏLƏR NƏZƏRİYYƏSİ

**fənnindən**

# PROQRAM

**Bakı – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Tətbiqi riyaziyyat və kibernetika**

fakültəsi

**"Riyazi kibernetika"**

kafedrası

**İxtisas: Riyazi kibernetika**

# MİF-B04-2 MÜNAQİŞƏLƏR NƏZƏRİYYƏSİ

**fənnindən**

# PROQRAM

Bakı Dövlət Universitetinin Qrif komissiyasının
tarixli .... sayli iclasının qərarı ilə fənn proqramı kimi təsdiq edilmişdir

**Bakı – 2019**

**Tərtib edənlər:**

1. BDU Riyazi kibernetika kafedrasının professoru, f.-r.e.d. K.B.Mənsimov
2. BDU Riyazi kibernetika kafedrasının dosenti f.-r.e.n. H.V.Şimiyev
3. BDU Riyazi kibernetika kafedrasının dosenti f.-r.e.n. J.B.Əhmədova

**Elmi redaktor:**

BDU Riyazi kibernetika kafedrasının professoru, f.-r.e.d. K.B.Mənsimov

**Rəyçilər:**

1. SDU-nin "Diferensial tənliklər və optimallaşdırma" kafedrasının müdiri, prof. Feyziyev F.G.

2. BDU-nun "Riyazi kibernetika" kafedrasının dosenti, f.-r.e.n. Əliyeva S.T.

## Münaqişələr nəzəriyyəsi

## İzahat vərəqi

Konfliktologiya – konfliktlər (münaqişələr) haqqında elmdir. Konfliktoloji biliklər qədim dövrlərdən başlayaraq yaranmışdır və Platonun, Aristotelin, Akvinskinin, sonralar isə Makiavelli və digərlərinin əsərlərində təsvir olunmuşdur. İnsanlığın və cəmiyyətin tarixi onu göstərir ki, qədim dövrlərdən indiyə kimi həmişə münaqişələr mövcud olmuşdur və bundan sonra da mövcud olacaqdır.

Ola bilsin ki, XXI əsrdə sivilizasiya qarçısında duran əsas məsələ,ya bütün konfliktləri həll etmək, ya da tarixdən silinmək alternativindən ibarət olacaqdır. Həyatımızın indiki mərhələsində hər bir şəxs,xüsusilə dövləti idarə edənlər hansı səviyyədə qərar tutmasından asılı olmayaraq müxtəlif masştablı münaqişələrin həll olunması üçün xüsusi səy göstərməlidirlər.Buna görə onlar konfliktologiya elminin formalaşması və öyrənilməsi üçün bütün zəruri işləri həyata keçirməlidirlər.

Fənnin mənimsənilməsi nəticəsində tələbələr

**Bilməlidir:**

- Münaqişə haqqında.
- Münaqişə situasiyaları haqqında.
- Münaqişələr nəzəriyyəsinin predmeti haqqında.

- Münaqişələr nəzəriyyəsinin tarixi haqqında.
- Münaqişələr nəzəriyyəsinin oyunlar nəzəriyyəsi ilə əlaqəsi haqqında.
- Münaqişələrin idarə olunması üsulları haqqında.
- Kooperativ və qeyri-kooperativ oyunlar haqqında.
- Riyazi modelləşdirmə haqqında.
- Sistem yanaşması prinsipi haqqında.
- Qərarlaşdırılmış optimum prinsipi haqqında.
- Qərar qəbul etmə nəzəriyyəsi haqqında.
- Danışıqlar prosesi haqqında.

**Bacarmalıdır:**

- Münaqişə anlayışının müxtəlif aspektlərdən təsvir olunmasını.
- Münaqişə situasiyası anlayışının təsvir olunmasını.
- Münaqişələr nəzəriyyəsinin tarixinin öyrənilməsini.
- Oyunlar nəzəriyyəsinin əösas anlayışlarının öyrənilməsini.
- Münaqişələrin idarə olunması üsullarını öyrənməyi.
- Münaqişələr nəzəriyyəsində riyazi modelləşdirməni tətbiq etməyi.
- Münaqişələr nəzəriyyəsində sistem yanaşması prinsipini tətbiq etməyi.
- Münaqişələr nəzəriyyəsində qərarlaşdırılmış optimum prinsipini tətbiq etməyi.

- Münaqişələr nəzəriyyəsində qərar qəbuletmə nəzəriyyəsini tətbiq etməyi.

**Yiyələnməlidir:**

- Münaqişələrin baş verməsinin fiziki, iqtisadi və sosial nəticələrinin biri-birindən ayırd edilməsi bacarığına.
- Münaqişə və münaqişə situasiyası anlayışlarının bir-birindən fərqləndirilməsi qabiliyyətinə.
- Münaqişələr nəzəriyyəsinin yaranma tarixinin öyrənilməsinə.
- Münaqişələr nəzəriyyəsində oyunlar nəzəriyyəsi və meta oyunlar nəzəriyyəsinin əsas prinsiplərini tətbiq etmə bacarığına.
- Münaqişələrin idarə olunması üsullarının müxtəlif aspektlərinin öyrənilməsinə.
- Münaqişələr və münaqişələr nəzəriyyəsində sistem yanaşması prinsipinin tətbiq olunmasına.
- Münaqişələr nəzəriyyəsində qərar qəbuletmənin əsas prinsiplərinin tətbiq edilməsi vərdişlərinə.

Fənnin tədrisində mövzulara uyğun hazırlanmış slaydların nümayişi üçün noutbuk və proyektorun olması məqsədəuyğundur.

## MÖVZULARIN SAATLAR ÜZRƏ PAYLANMASI

| № | Mövzuların adı | Auditoriya saatlarının |
|---|---|---|

| | | miqdarı | |
|---|---|---|---|
| | | **mühazirə** | **məşğələ** |
| **1.** | Münaqişələr nəzəriyyəsinin predmeti və yaranma tarixi | 2 | 1 |
| **2.** | Münaqişə, münaqişə situasiyası anlayışları və onların formal təsviri | 2 | 1 |
| **3.** | Münaqişələr nəzəriyyəsinin müasir mərhələdə durumu | 2 | 1 |
| **4.** | Münaqişələr və oyunlar nəzəriyyəsi. Bir neçə oyunçudan ibarət sıfır cəmli oyunlar | 2 | 1 |
| **5.** | Münaqişələrin idarə olunması üsulları | 2 | 1 |
| **6.** | *n* oyunçudan ibarət kooperativ və qeyri kooperativ oyunlar | 2 | 1 |
| **7.** | *n* oyunçudan ibarət tam informasiyaya malik oyunlar | 2 | 1 |
| **8.** | Münaqişələr nəzəriyyə sində riyazi modelləşmə | 2 | 1 |
| **9.** | Münaqişələr nəzəriyyəsində sistem yanaşma prinsipi | 2 | 1 |
| **10.** | Münaqişələr nəzəriyyə sində qərarlaşdırılmış optimum prinsipi | 2 | 1 |
| **11.** | Münaqişələrin həllində qərar qəbuletmə nəzəriyyəsinin əsas prinsipləri | 4 | 2 |
| **12.** | Danışıqlar prosesi münaqişələrin həll olunması üçün universal üsuldur | 4 | 2 |

| | | | |
|---|---|---|---|
| **13.** | Münaqişələr nəzəriyyəsində metaoyunlar nəzəriyyəsinin tətbiq olunma prinsipləri | 2 | 1 |

**Mövzuların qısa məzmunu**

**Mövzu № 1.** ***Münaqişələr nəzəriyyəsinin predmeti və yaranma tarıxı.***

Müxtəlif dövrlərdə həyat tərzinin dəyişməsindən asılı olaraq münaqişələrin baş verməsinin fiziki, iqtisadi və sosial nəticələrinin elmi tədqiqat nöqteyi nəzərindən öyrənilməsi, münaqişələr haqqında təsəvvürün formalaşması, insan cəmiyyətinin inkişafında onların dağıdıcı rolu, cəmiyyətdə müharibə təhlükəsinin aradan qaldırılması və əbədi sülhün bərqərar olunması.

Qədim dövrdə, orta əsrlər dövründə, yeni dövrdə münaqişəyə və münaqişə anlamına bir sıra dünya xalqları alimlərinin müdriklərinin yanaşma təsiri öyrənilir. Keçmiş SSRİ məkanında konfliktologiyanın inkişaf tarixi öyrənilir. Azərbaycanda konfliktologiyanın yaranma səbəbləri araşdırılır.
[1-12].

**Mövzu № 2.** ***Münaqişə, münaqişə situasiyası anlayışları və onların formal təsviri***.

Münaqişə anlayışı münaqişələr nəzəriyyəsinin ilkin anlayışı olduğundan və həm də mürəkkəb sosial və psixoloji hadisə olduğundan, münaqişə və münaqişə situasiyaları anlayışlarının bir-birindən necə fərqləndirilməsi öyrənilir.

[1-12].

**Mövzu №3.** ***Münaqişələr nəzəriyyəsinin müasir mərhələdə durumu.***

Münaqişələr nəzəriyyəsinin müasir mərhələdə durumu, bu sahədə aparılan elmi-tədqiqat işlərinin yerinə yetilirməsi və bu sahədə müdafiə olunan dissertasiya işlərinin sayı və kimlər tərəfindən yerinə yetirilməsi haqqında informasiyalar öyrənilir.

[1-12].

**Mövzu № 4.** ***Münaqişələr və oyunlar nəzəriyyəsi. Bir neçə oyunçudan ibarət sıfir cəmli oyunlar.***

Münaqişələr nəzəriyyəsinin oyunlar nəzəriyyəsi ilə əlaqəsi öyrənilir. Münaqişələr nəzəriyyəsinin oyunlar nəzəriyyəsinin tərkib hissəsi yaxud ikincinin birincinin tərkib hissəsi olması məsələləri öyrənilir. Həmçinin iki oyunçudan və bir neçə oyunçudan ibarət səfər cəmli oyunlar öyrənilir.

[1-12].

**Mövzu № 5.** ***Münaqişələrin idarə olunması üsulları.***

Münaqişənin idarə olunmasının şəxsiyyət daxili üsulu, struktur üsulu, şəxsiyyətlər arsı üsul, fərdi – personal üsul, danışıqlar üsulu, şəxsiyyətin davranışının idarə olunması üsulu öyrənilir.

[1-12].

**Mövzu № 6.** ***n oyunçudan ibarət kooperativ və qeyri kooperativ oyunlar***.

n oyunçudan ibarət kooperativ və qeyri-kooperativ oyunlar öyrənilir. Bu oyunlarda münaqişələr nəzəriyyəsinində çox mühüm olan koalisiya anlayışı öyrənilir. Bu oyunlar üçün Pareto prinsipi öyrənilir.

[1-12].

**Mövzu № 7.** ***n oyunçudan ibarət tam informasiyaya malik oyunlar***.

n oyuncudan ibarət tam informasiyaya malik olan oyunlar öyrənilir. Bu zaman nəzərə alınırki, münaqişə tərəfləri bir-birinin bütün gediçləri haqda tam informasiyaya malikdirlər.

[1-12].

**Mövzu № 8.** ***Münaqişələr nəzəriyyə sində riyazi modelləşmə***.

Münaqişələr nəzəriyyəsində riyazi modelləşdirmənin aşağıdakı istiqamətləri öyrənilir. Münaqişə situasiyalarında universal riyazi modellərin işlənməsi, mürəkkəb sistemlərin fəaliyyətinin araşdırılması, münaqişələrdə insan fəaliyyətinin optimallaşdırılması və s.
[1-12].

**Mövzu № 9**. ***Münaqişələr nəzəriyyəsində sistem yanaşma prinsipi***.

Münaqişələr nəzəriyyəsində münaqişələri analiz edərkən onlara bir-biri ilə iyerarxik şəkildə əlaqədə olan və öz növbəsində alt sistem kimi daha yüksək səviyyəli sistemə daxil olan mürəkkəb təşkil edilmiş obyektlər kimi baxmaq zərurəti yaranır və bu zaman sistem yanaşması prinsipi tətbiq edilir.
[1-12].

**Mövzu № 10.** ***Münaqişələr nəzəriyyə sində qərarlaşdırılmış optimum prinsipi***.

Münaqişələr və münaqişələr nəzəriyyəsində qərarlaşdırılmış optimum prinsipi insan qruplarının yaxud münaqişə tərəfdaşlarının vahid məqsəd uğrunda fəaliyyətləri üçün birgə fəaliyyət tələb edən ümumi metodların işlənib hazırlanması məsələsi öyrənilir.
[1-12].

**Mövzu № 11**. ***Münaqişələrin həllində qərar qəbuletmə nəzəriyyəsinin əsas prinsipləri***.

Münaqişə və münaqişə situasiyalarının həll olunmasında qərar qəbuletmə nəzəriyyəsinin əsas prinsipləri öyrənilir. Burada əsas məsələ fəaliyyət idarəetmə, informasiya və qərarqəbuletmə anlayışları arasında müəyyən qanunauyğunluqların dialektik vəhdəti öyrənilir.
[1-12].

**Mövzu № 12. *Danışıqlar prosesi münaqişələrin həll olunması üçün universal üsuldur***.

Danışıqlar insani münasibətlərin qədim və universal vasitələrindən biri olduğundan, burada tərəflərin qəbul etdiyi kompromis, yaxud "ortaq məxrəcə gəlmə", nisbi kompromis və prinsipial həllərin tapılması yolları öyrənilir.
[1-12].

**Mövzu № 13. *Münaqişələr nəzəriyyəsində metaoyunlar nəzəriyyəsinin tətbiq olunma prinsipləri.***

Münaqişə situasiyalarının analizində metaoyunlar nəzəriyyəsinin tətbiq olunmasının başlıca məqsədi tarazlıq nöqtəsinin və uyğun siyasətlərin axtarılıb tapılmasından ibarətdir.

Metanəzəriyyə dedikdə hər hansı nəzəriyyənin strukturu, metodu və xüsusiyyətlərini təhlil edən başqa nəzəriyyə başa düşülür.
[1-12].

**Sərbəst işlərin mövzuları.**

1. Münaqişələr nəzəriyyəsinin predmeti. Münaqişələr nəzəriyyəsinin tarixi.
2. Münaqişə, münaqişə situasiyası anlayışları və onların formal təsviri. Münaqişələr nəzəriyyəsinin müasir mərhələdə durumu.
3. Münaqişələr və oyunlar nəzəriyyəsi. Bir neçə oyunçudan ibarət sıfır cəmli oyunlar.
4. Münaqişələrin idarə olunması üsulları.
5. n oyunçudan ibarət kooperativ və qeyri kooperativ oyunlar.
6. n oyunçudan ibarət tam informasiyaya malik oyunlar.
7. Münaqişələr nəzəriyyə sində riyazi modelləşmə.
8. Münaqişələr nəzəriyyəsində sistem yanaşma prinsipi.
9. Münaqişələr nəzəriyyə sində qərarlaşdırılmış optimum prinsipi. Münaqişələrin həllində qərar qəbuletmə nəzəriyyəsinin əsas prinsipləri.
10. Danışıqlar prosesi münaqişələrin həll olunması üçün universal üsuldur.

## ƏDƏBİYYAT

***Əsas:***


1. Анцупов А.Я., Шипилов А.И. Конфликтология. Учебник для вузов. Москва, ЮНИТИ, 1999.
2. Громова О.Н. Конфликтология . Москва, ЭКМОС, 2000.
3. Оуэн Г. Теория игр. Москва, Мир, 1971.
4. Под редакцией Дж.Моудера, С.Элмагреби. Исследование операций в 4-х томах. Методологические основы и математические методы. Модели и применения. Москва, Мир, 1981.
5. Томас Л. Саати. Математические модели конфликтных ситуаций. Москва, Сов. радио, 1977.
6. В.И.Арнольд «Жесткие» и «мягкие» математические модели М.: Мцнмо, 200. с.32.
7. H.V.Şimiyev. Münaqişələrin tədqiq olunması. Münaqişələrin tədqiqi-danışıqların aparılması. 2005. s.3, 4.
8. H.V. Şimiyev. Münaqişələr nəzəriyyəsində qərarlaşdırılmış (razılaşdırılmış) optimum prinsipi. Bilgi dərgisi. Fizika-Riyaziyyat yer elmləri. 2002. s. 2.
9. Г.В.Шимиев. Коллективное конфликтное поведение линейных последовательностных машин. Bakı Universitetinin xəbərləri. Fizika-Riyaziyyat elmlər seriyası. 2009. s. 2.
10. Şimiyev H.V. Münaqişələr situasiyalarının oyun modelləri. BDU-nun xəbərləri. Fiz-riy. ser. səh. 97-105.

11. Şimiyev H.V. Münaqişələr nəzəriyyəsində qərar qəbuletmənin əsas prinsipləri BDU-nun xəbərləri. Fiz-riy. ser. səh.50-59.
12. Г.В.Шимиев. Моделирование в конфликтных ситуациях.